**İqtisadi nəzəriyyə. Ümumi iqtisadiyyat. Economic theory. General economics.**
**2025 (1). səh. 56-64. 2025 (1). pp. 56-64. 2025 (1). стр. 56-64.**
**UOT: 006.1, 351:006.1, 006.3, 006.7, 35.077. JEL: L51, L15, H83, O38, H83, D73.**

**Minarə Elman qızı Ağayeva**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutu, "Biznes mühitinin tənzimlənməsi və*
*sahibkarlığın inkişafı" şöbəsi, elmi işçi*
*minara.aghayeva@gmail.com*

# DÖVLƏT STANDARTLAŞDIRMA SİSTEMLƏRİNİN HARMONİZASİYA SƏVİYYƏSİNƏ GÖRƏ ÖLKƏLƏR ÜZRƏ MÜQAYİSƏSİ

## XÜLASƏ

Qlobal iqtisadi mühitdə ölkələrin beynəlxalq bazarlara asan çıxış əldə etməsi və yerli şirkətlərin qlobal dəyər zəncirinə inteqrasiyasında dövlət standartlarının beynəlxalq standartlara harmonizasiya olunması aktual mövzudur. Məqalənin məqsədi postsovet ölkələrinin dövlət standartlaşdırma sistemlərini dövlət standartlarının beynəlxalq standartlara harmonizasiya dərəcəsinə görə müqayisə etmək, həmçinin bu ölkələrdə standartlaşdırma tədbirlərində dövlətin rolu və nəzarət səviyyəsi, standartlaşdırma üzrə milli orqanların standartlaşdırma ilə bağlı beynəlxalq təşkilatlara inteqrasiya səviyyəsi təhlil olunmaqla bu ölkələrin standartlaşdırma sistemlərini müqayisə etmək və Azərbaycan təcrübəsini bu kontekstdə qiymətləndirməkdir. Məqalədə induktiv və müqayisəli təhlil metodları vasitəsilə statistik məlumatların əlyetər olduğu postsovet ölkələri stadartlaşdırma tədbirlərində dövlətin rolu və nəzarət səviyyəsi, standartların harmonizasiya səviyyəsi, beynəlxalq təşkilatlara inteqrasiya dərəcəsinə görə müqayisə edilmişdir. Araşdırmanın nəticəsi olaraq, standartların harmonizasiya səviyyəsinin bir ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının mühüm göstəricilərindən biri olması və bu göstəricinin yüksək olmasının isə beynəlxalq bazarlara çıxış imkanlarını, məhsul və xidmətlərin qlobal bazarda rəqabət qabiliyyətini artırdığı müəyyən edilmişdir. Ölkələri dövlət standartlarının harmonizasiya səviyyəsinə görə müqayisə edilməsi, onların bu xüsusda kateqoriyalara ayrılması tədqiqatın elmi yeniliyini ortaya qoyur.

**Açar sözlər:** standartlaşdırma, standartlaşdırma üzrə milli orqan, harmonizasiya

**Minara Elman Aghayeva**
*Ministry of Science and Education of the Republic of Azerbaijan*
*Institute of Economics, department of "Regulation of business environment and*
*development of entrepreneurship", scientific worker*
*minara.aghayeva@gmail.com*

# COMPARISON OF COUNTRIES BY THE LEVEL OF HARMONIZATION OF NATIONAL STANDARDIZATION SYSTEMS

## ABSTRACT

In the global economic environment, the harmonization of national standards with international standards is an important issue for ensuring countries' easier access to international markets and for facilitating the integration of domestic companies into global value chains. The purpose of the article is to compare the national standardization systems of post-Soviet countries according to the degree of harmonization of national standards with international standards, as well as to analyze the role and level of state control in standardization activities, and the level of integration of national standardization bodies into international standardization organizations. Based on this analysis, the

study aims to compare the standardization systems of these countries and to evaluate the Azerbaijani experience in this context. Using inductive and comparative analysis methods, the article compares post-Soviet countries - for which statistical data are available - in terms of the state's role and control in standardization activities, the level of harmonization of standards, and the degree of integration into international organizations. As a result of the research, it has been determined that the level of harmonization of standards is one of the key indicators of a country's integration into the global economic system, and that a higher level of harmonization increases access to international markets and enhances the competitiveness of goods and services in the global market. The scientific novelty of the study lies in the comparison of countries according to the level of harmonization of national standards and their categorization based on this indicator.

**Keywords:** standardization, national standardization body, harmonization

**Минара Эльман кызы Агаева**
*Министерство Науки и Образования Азербайджанской Республики*
*Институт Экономики, отдел "Регулирование бизнес-среды и развитие предпринимательства", научный сотрудник*
*minara.aghayeva@gmail.com*

## СРАВНЕНИЕ СТРАН ПО УРОВНЮ ГАРМОНИЗАЦИИ ГОСУДАРСТВЕННЫХ СИСТЕМ СТАНДАРТИЗАЦИИ

## АННОТАЦИЯ

В условиях глобальной экономической среды гармонизация государственных стандартов с международными является актуальной темой, поскольку она обеспечивает странам более лёгкий доступ к международным рынкам и способствует интеграции местных компаний в глобальные цепочки создания добавленной стоимости. Целью статьи является сравнение государственных систем стандартизации постсоветских стран по степени гармонизации национальных стандартов с международными, а также анализ роли и уровня государственного участия и контроля в стандартизационной деятельности, степени интеграции национальных органов по стандартизации в международные организации по стандартизации. На основе данного анализа проводится сравнение систем стандартизации этих стран и оценивается опыт Азербайджана в данном контексте. В статье с использованием индуктивного и сравнительного методов анализа проведено сопоставление постсоветских стран, для которых доступны статистические данные, по следующим параметрам: роль и уровень государственного участия и контроля в стандартизации, уровень гармонизации стандартов и степень интеграции в международные организации. Результаты исследования показали, что уровень гармонизации стандартов является одним из ключевых показателей интеграции страны в глобальную экономическую систему, а высокий уровень гармонизации способствует расширению доступа на международные рынки и повышению конкурентоспособности продукции и услуг на мировом рынке. Научная новизна исследования заключается в сравнении стран по уровню гармонизации государственных стандартов и их классификации по данному признаку.

**Ключевые слова:** стандартизация, национальный орган по стандартизации, гармонизация

## GİRİŞ

Standartlaşdırma məhsul və xidmətlərin texniki uyğunluğunu təmin edən, istehlakçı hüquqlarını qoruyan və eyni zamanda beynəlxalq ticarət üçün texniki baryerləri minimuma endirən mühüm normativ mexanizmdir. O, həm də innovasiya proseslərinin stimullaşdırılmasında və texnologiya transferində əhəmiyyətli rol oynayır. Bununla yanaşı, dövlət standartlaşdırma sistemlərinin

formalaşmasında dövlətin rolu ölkələr arasında ciddi fərqlilik göstərir. Bəzi ölkələrdə bu sistemlər bazar əsaslı, özəl və könüllü iştirakın üstünlük təşkil etdiyi liberal yanaşma üzərində qurulmuşdur. Digərlərində isə dövlət nəzarəti, məcburi standartların geniş tətbiqi və yüksək tənzimləmə dərəcəsi ilə xarakterizə olunan dirijist model üstünlük təşkil edir. Postsovet ölkələrinin standartlaşdırma sistemləri isə xüsusi maraq doğurur. Bu ölkələrin əksəriyyətində standartlaşdırma Sovet İttifaqının vahid "GOST" modelindən irsən qalmışdır. Lakin müstəqillik dövründə həmin sistemlər müxtəlif transformasiya mərhələlərindən keçmişdir. Bəzi ölkələr dövlət standartlarının beynəlxalq standartlarla harmonizasiyasına üstünlük verərək, öz milli sistemlərini qlobal texniki tələblərə uyğunlaşdırmağa çalışmışdır. Digərlərində isə milli maraqların qorunması, daxili bazarın müdafiəsi və dövlət nəzarətinin saxlanılması prioritet kimi qalmaqdadır. Təhlildə ölkələrin standartlaşdırma sistemlərində həm dövlətin iştirak dərəcəsi, həm də milli standartların beynəlxalq standartlarla harmonizasiya səviyyəsi nəzərə alınır. Belə yanaşma müxtəlif ölkələrin standartlaşdırma siyasətindəki fərqləri daha aydın göstərməklə yanaşı, Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyasında mövqeyini də müəyyənləşdirməyə imkan yaradır. Liberal yanaşma standartların əsasən könüllü xarakter daşıdığı, özəl sektorun və bazar iştirakçılarının fəallığının yüksək olduğu sistemlərdə müşahidə olunur (Blind, K., 2013). Dirijist modellərdə isə dövlət mərkəzi rol oynayır, normativ hüquqi baza sərt olur və məcburi standartların payı üstünlük təşkil edir (Swann, G., 2010). Postsovet ölkələrində isə bu iki modelin müxtəlif kombinasiyalarına rast gəlmək mümkündür.

**Standartların harmonizasiyası**

Standartların harmonizasiyası milli standartların beynəlxalq standartlarla uyğunlaşdırılması prosesidir və müasir iqtisadiyyatların inkişafında strateji alət kimi çıxış edir. Harmonizasiya, ilk növbədə, texniki ticarət maneələrinin aradan qaldırılması, istehsalçı və istehlakçılar arasında etimadın artırılması, eləcə də beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır (Blind, K., Mangelsdorf, A., & Pohlisch, J., 2018). Yüksək harmonizasiya səviyyəsi milli standartlaşdırma sisteminin qlobal iqtisadi sistemlə inteqrasiyasını gücləndirir və ölkənin xarici ticarət siyasətində mühüm üstünlüklər yaradır. Harmonizasiya, həm də innovasiya prosesləri ilə sıx bağlıdır. Beynəlxalq standartların milli səviyyədə tətbiqi yeni texnologiyaların ölkəyə gətirilməsini və texnologiya transferini asanlaşdırır. Bu, xüsusilə sənaye və yüksək texnologiyalar sahəsində məhsulların beynəlxalq uyğunluq tələblərinə cavab verməsi üçün vacibdir. Bununla yanaşı, bəzi hallarda harmonizasiya yerli xüsusiyyətlərə uyğun olmayan texniki tələblərin tətbiqini zəruri edə bilər ki, bu da milli innovasiya potensialına müəyyən məhdudiyyətlər gətirə bilər (Swann, G., 2010). Postsovet ölkələrinin təcrübəsi göstərir ki, harmonizasiya səviyyəsi dövlətlərin iqtisadi siyasət prioritetlərindən asılı olaraq fərqlənir. Məsələn, ixrac yönümlü ölkələr beynəlxalq standartların geniş tətbiqinə üstünlük verir, çünki bu, məhsulların xarici bazarlarda qəbulunu asanlaşdırır. Digər tərəfdən, daxili bazarın qorunmasını prioritet sayan ölkələrdə harmonizasiya səviyyəsi aşağı olur və milli standartların payı üstünlük təşkil edir.

**Standartların harmonizasiyasına nəzrəri baxış**

Mövcud elmi ədəbiyyat göstərir ki, beynəlxalq standartların tətbiqi ixrac əməliyyatlarında texniki baryerləri azaldır və bazara çıxışı asanlaşdırır (Maskus, K., & Wilson, J., 2001). Bu ölkələrin qlobal dəyər zəncirinə daha asan inteqrasiya olunmasına kömək edir. İxrac yönümlü xarici ticarəti olan ölkələrdə beynəlxalq bazara çıxışı sürətləndirir. Həmçinin milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması istehsalçıların məhsullarını beynəlxalq bazarlarda rəqabətə davamlı edir (Swann, G., 2010). İnnovasiya və texnologiya transferi cəhətdən də dövlət standartlarının beynəlxalq standartlara harmonizasiyası bilik və texnologiyaların yayılmasını sürətləndirir (Blind, K., 2004). Xarici investorlar investisiya yatıracaqları ölkədə standartların beynəlxalq standartlara

uyğunluğunu bazar şəffaflığının göstəricisi kimi qiymətləndirirlər (OECD, 2017) Beləliklə, nəzəri ədəbiyyat harmonizasiyanın milli iqtisadi sistemlərin qlobal inteqrasiyasına birbaşa təsir etdiyini təsdiqləyir. Ümumilikdə, standartların harmonizasiyası yalnız texniki uyğunluq məsələsi deyil, həm də iqtisadi siyasətin strateji elementi kimi qiymətləndirilməlidir. Optimal harmonizasiya balansının yaradılması həm beynəlxalq bazarda rəqabət qabiliyyətinin təmin olunması, həm də milli maraqların qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Metodoloji baxış**

Ölkədə qəbul olunmuş beynəlxalq standartların milli standartlara nisbəti milli standartlaşdırma sisteminin qlobal iqtisadiyyata inteqrasiya səviyyəsini əks etdirən mühüm göstəricidir. Bu göstərici həm milli siyasət, həm də iqtisadi inkişaf baxımından əhəmiyyət daşıyır. Onun yüksək və ya aşağı olması ölkənin ticarət imkanlarına, texnologiya transferinə, innovasiya mühitinə və milli maraqların qorunmasına birbaşa təsir göstərir (Swann, G., 2010). Bu göstərici əslində bir harmonizasiya əmsalı kimi qəbul edilə bilər. Yəni milli standartların beynəlxalq sənədlərlə nə dərəcədə uyğunlaşdırıldığını ölçür. İnkişaf etmiş ölkələrdə bu əmsal yüksək olur, çünki texniki tənzimləmə siyasəti beynəlxalq bazarlara çıxışı asanlaşdırmaq məqsədi güdür. İnkişaf etməkdə olan ölkələrdə isə göstəricinin nisbətən aşağı olması yerli bazarların qorunması ilə izah edilir (Blind, K., Mangelsdorf, A., & Pohlisch, J., 2018). Məsələn, Avropa İttifaqı ölkələrində harmonizasiya səviyyəsi 70-90% arasında dəyişir. Bu, ixrac yönümlü iqtisadi siyasətin nəticəsidir və texniki baryerlərin minimuma endirilməsinə xidmət edir. Əksinə, bəzi postsovet ölkələrində göstərici 40-50% səviyyəsində dəyişir, bu da milli standartlaşdırmanın yerli xüsusiyyətlərə əsaslanmasından xəbər verir.

Standartların tətbiqində sahələrarası fərqlər də mövcuddur. Qida təhlükəsizliyi, kənd təsərrüfatı və səhiyyə sahələrində milli standartların üstünlük təşkil etməsi daha çox müşahidə edilir, çünki milli xüsusiyyətlər və ictimai sağlamlıqla bağlı prioritetlər önə çıxır. Buna qarşılıq sənaye, enerji və informasiya texnologiyaları sahələrində beynəlxalq standartların payı daha yüksəkdir (OECD, 2017). Harmonizasiya səviyyəsinin yüksək olması ölkənin beynəlxalq ticarətdə iştirak imkanlarını genişləndirir, ixrac məhsullarının rəqabət qabiliyyətini artırır və xarici investisiyaların cəlbinə şərait yaradır. Aşağı harmonizasiya isə daxili bazarı qoruyur, lakin texniki maneələrin mövcudluğunu artıraraq ölkənin qlobal bazarlara inteqrasiyasını çətinləşdirir (Maskus, K. & Wilson, J., 2001). Bu göstərici eyni zamanda dövlətin strateji seçimlərinin bariz əlamətidir. Yüksək harmonizasiya ixrac yönümlü siyasətin, aşağı harmonizasiya isə daxili bazarın qorunmasına üstünlük verildiyinin göstəricisidir. Dövlətlər çox zaman iqtisadi inkişaf mərhələsindən və prioritetlərindən asılı olaraq balanslı yanaşma tətbiq edirlər (Swann, G., 2010). Beynəlxalq standartların geniş tətbiqi texnologiya transferinə və biliklərin sürətli mənimsənilməsinə imkan yaratsa da, bəzi hallarda yerli innovasiyaların inkişafına əngəl törədə bilər. Çünki beynəlxalq normalara uyğun olmayan yeni həllərin tətbiqi çətinləşir. Bu baxımdan optimal harmonizasiya balansının yaradılması vacibdir. Ümumilikdə, beynəlxalq standartların milli standartlara nisbəti yalnız texniki göstərici deyil, həm də ölkənin iqtisadi siyasəti, innovasiya strategiyası və qlobal bazarlara inteqrasiyası ilə bağlı çoxölçülü göstəricidir. Bu səbəbdən, ölkələrin inkişaf strategiyalarında harmonizasiya səviyyəsinin optimal müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Araşdırmada müqayisəli yanaşmadan istifadə olunmuşdur. Ölkələrin standartlaşdırma sistemləri aşağıdakı göstəricilər əsasında təhlil olunmuşdur:

- Dövlətin rolu və nəzarət səviyyəsi;
- Standartların harmonizasiya səviyyəsi;
- Beynəlxalq təşkilatlara inteqrasiya dərəcəsi.

Təhlil qrupu ölkələrini milli standartların beynəlxalq standartlara uyğunlaşma dərəcəsinə görə müqayisə etmək üçün Harmonizasiya göstəricisindən istifadə olunmuşdur:

$$\frac{ISOi}{MSi} * 100 = Hi$$

- $H_i$ – ixtiyari i ölkəsində standartların harmonizasiya səviyyəsi;
- $ISO_i$ – ixtiyari i ölkəsində qəbul olunmuş ISO standartlarının sayı;
- $MS_i$ – ixtiyari i ölkəsində qəbul olunmuş ümumi milli standartların sayı.

Statistik mənbə kimi ISO (International Organization for Standardization), UNIDO (United Nations Industrial Development Organization) və postsovet ölkələrinin milli standartlaşdırma qurumlarının rəsmi məlumat bazalarından istifadə olunmuşdur.

**Postsovet ölkələrinin dövlət standartlaşdırma sistemlərinin müqayisəli təhlili**

Sovet İttifaqının süqutu postsovet ölkələrinin siyasi, iqtisadi və institusional inkişafında yeni bir mərhələnin başlanğıcı olmuşdur. Bu dövlətlər müstəqillik əldə etdikdən sonra öz milli iqtisadiyyatlarını formalaşdırmaqla yanaşı, müxtəlif normativ-inzibati mexanizmləri, o cümlədən standartlaşdırma sistemlərini də yenidən qurmaq məcburiyyətində qalmışlar. Standartlaşdırma mexanizmlərinin yenidən təşkili hər bir ölkənin beynəlxalq ticarət münasibətlərinə qoşulması, innovasiya potensialının artırılması və istehsal sahələrinin modernləşdirilməsi üçün mühüm şərt hesab olunurdu. SSRİ dövründə texniki tənzimləmə və standartlaşdırma fəaliyyəti tam mərkəzləşdirilmiş model əsasında fəaliyyət göstərirdi. Bu sistemin əsas institusional dayağı Dövlət Standartlaşdırma Komitəsi – GOST idi ki, ittifaq miqyasında bütün normativ aktların hazırlanmasını, qəbulunu və tətbiqini həyata keçirirdi. Beləliklə, iqtisadiyyatın bütün sahələrində vahid texniki və normativ məkan mövcud idi. Lakin 1991-ci ildən sonra yaranmış geosiyasi və iqtisadi dəyişikliklər fonunda hər bir müstəqil dövlət milli standartlaşdırma orqanını təsis etməyə məcbur oldu. Bu yeni qurumlar öz fəaliyyətlərini milli maraqlara uyğun şəkildə qursalar da, keçmiş sovet standartlarının (GOST) müəyyən hissəsini qoruyub saxlamış, eyni zamanda beynəlxalq və regional standartlaşdırma sistemlərinə inteqrasiya etməyə başlamışlar (cədvəl 1). Nəticə etibarilə, postsovet məkanında standartlaşdırma sistemləri vahid sovet modelindən çıxaraq müxtəlif inkişaf trayektoriyaları üzrə formalaşmağa başlamışdır.

Baltikyanı ölkələr (Latviya, Litva, Estoniya) – bu dövlətlər müstəqillikdən dərhal sonra Avropa İttifaqına inteqrasiyanı prioritet seçmiş, milli standartlaşdırma orqanlarını Avropa Komissiyasının tələblərinə uyğunlaşdırmışdır. Onlar qısa müddətdə GOST standartlarını tamamilə ləğv etmiş və Avropa (EN) və beynəlxalq (ISO) standartlarını qəbul etmişlər. Bu, onların Avropa bazarına sürətli inteqrasiyasına imkan vermişdir. Cənubi Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan, Ermənistan) – bu regionda isə standartlaşdırma sistemləri keçid mərhələsini daha uzun müddət yaşamışdır. Azərbaycan və Ermənistan hələ də müəyyən sahələrdə GOST standartlarından istifadə etsələr də, beynəlxalq sistemlərə uyğunlaşma istiqamətində addımlar atmaqdadırlar. Gürcüstan isə Avropa İttifaqı ilə Assosiasiya Sazişindən sonra standartlaşdırma siyasətini Avropa normaları ilə uyğunlaşdırmağa başlamışdır.

Rusiya, Belarus, Qazaxıstan və Qırğızıstan Avrasiya İqtisadi İttifaqı çərçivəsində vahid texniki reqlamentlər əsasında əməkdaşlıq edirlər. Bu dövlətlərdə GOST irsi daha güclü qorunub saxlanılmış, standartlaşdırma fəaliyyəti əsasən dövlət nəzarəti altında davam etdirilmişdir. Digər tərəfdən, Özbəkistan və Türkmənistan milli standartlaşdırma sistemlərini daha çox daxili iqtisadiyyatın tələblərinə uyğunlaşdırmış, beynəlxalq sistemlərlə inteqrasiyada isə nisbətən ehtiyatlı mövqe sərgiləmişdir. Beləliklə, postsovet ölkələrinin standartlaşdırma sistemlərinin inkişafı bir tərəfdən keçmişin institusional irsi, digər tərəfdən isə seçilmiş iqtisadi-siyasi inteqrasiya istiqamətləri ilə müəyyən olunur. Baltikyanı ölkələr daha sürətli Avropa modelinə keçid etmiş, Cənubi Qafqaz dövlətləri ikili – həm GOST, həm də beynəlxalq standartlardan istifadə yolunu seçmiş, Rusiya və Mərkəzi Asiya ölkələri isə əsasən regional əməkdaşlıq formatında inkişaf etmişdir.

Tədqiqat zamanı statistik məlumatların toplanması üçün əsas mənbələr kimi ISO (International Organization for Standardization – Beynəlxalq Standartlaşdırma Təşkilatı) və UNIDO (United Nations Industrial Development Organization – Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı) məlumat bazaları, həmçinin postsovet ölkələrinin milli standartlaşdırma orqanlarının rəsmi veb-səhifələri və normativ sənədlərindən istifadə olunmuşdur. Bu yanaşma həm beynəlxalq müqayisələrin aparılmasına, həm də hər bir ölkənin institusional xüsusiyyətlərinin nəzərə alınmasına imkan vermişdir.

**Təhlil qrupu ölkələrinin standartlaşdırma sistemlərinin beynəlxalq standartlaşdırma sistemlərinə inteqrasiyası**

Hər bir ölkə üçün onun dövlət standartlarının beynəlxalq standartlara harmonizasiyası prosesi qlobal ticarət sisteminə qoşulma, texnoloji transferin asanlaşdırılması, eləcə də xarici investisiyaların cəlb edilməsi baxımından mühüm strateji fəaliyyət hesab edilir. Postsovet dövlətlərinin beynəlxalq standartlaşdırma sistemlərinə inteqrasiyası bir neçə istiqamətdə müşahidə olunur:

1. Beynəlxalq təşkilatlarda üzvlük və iştirak – postsovet ölkələrinin əksəriyyəti Beynəlxalq Standartlaşdırma Təşkilatına (ISO), Beynəlxalq Elektroteknika Komissiyasına (IEC) və digər texniki qurumlara üzv və ya müşahidəçi üzv kimi qoşulmuşdur. Məsələn, Azərbaycan, Rusiya, Qazaxıstan, Belarus və Ermənistan tamhüquqlu üzv statusuna malikdir. Gürcüstan və Moldova isə müşahidəçi üzv dövlətlər sırasındadır. Bu iştirak milli standartlaşdırma orqanlarının beynəlxalq normalara uyğun texniki komitələrdə işləməsinə imkan yaradır.

2. Beynəlxalq standartların milli səviyyədə tətbiqi - postsovet ölkələrində qəbul edilmiş milli standartların müəyyən hissəsi ISO, IEC və digər beynəlxalq standartlardan adaptasiya olunur. Azərbaycanda isə son illərdə ISO standartlarının qəbulu sürətlənmiş, bu da ölkənin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük istiqamətində öhdəlikləri ilə uzlaşmışdır.

3. Regional əməkdaşlıq mexanizmləri - postsovet məkanında standartlaşdırma sahəsində inteqrasiya yalnız beynəlxalq təşkilatlar vasitəsilə deyil, həm də regional qurumlar səviyyəsində həyata keçirilir. Avrasiya İqtisadi İttifaqı (AİI) çərçivəsində texniki tənzimləmə və standartlaşdırma siyasətinin harmonizasiyası aparılır. Bu, vahid texniki qaydaların formalaşmasına və üzv dövlətlər arasında ticarət maneələrinin azaldılmasına xidmət edir.

Cədvəl 1

**Təhlil qrupu ölkələrinin müqayisəsi**

| | Standartlaşdırma üzrə Mili orqan | Beynəlxalq sistemlərə inteqrasiya | | |
|---|---|---|---|---|
| | | İSO | İEC | CEN |
| **Azərbaycan** | AZSTAND | üzv | üzv | yox |
| **Belarus** | BELST | üzv | üzv | yox |
| **Ermənistan** | ARMSTANDARD | üzv | üzv | yox |
| **Estoniya** | EVS | üzv | üzv | üzv |
| **Gürcüstan** | GEOSTM | müş. üzv | müş. üzv | yox |
| **Qazaxıstan** | CTRM | üzv | üzv | yox |
| **Latviya** | LVS | üzv | üzv | üzv |
| **Litva** | LST | üzv | üzv | üzv |
| **Moldova** | ISM | müş. üzv | müş. üzv | yox |
| **Rusiya** | GOST R | üzv | üzv | yox |
| **Ukrayna** | SE UkrNDNC | üzv | üzv | müş. üzv |

*Mənbə:* Cədvəl ISO (International Organization for Standardization) və postsovet ölkələrinin milli standartlaşdırma qurumlarının rəsmi məlumat bazaları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Tədqiqat zamanı təhlil qrupu ölkələrinin Standartlaşdırma sistemlərinin beynəlxalq standartlaşdırma sistemlərinə inteqrasiyasını qiymətləndirmək üçün "Milli standartların harmonizasiya səviyyəsi" göstəricisindən istifadə olunmuşdur. Burada hər bir ölkədə adaptasiya olunmuş ISO standartlarının həmin ölkədə qəbul olunmuş milli standartlara nisbəti qiymətləndirilmişdir (diaqram 1).

Diaqram 1

**Təhlil qrupu ölkələrində standartların harmonizasiya səviyyəsi**




*Mənbə:* Qrafik UNIDO (United Nations Industrial Development Organization) məlumat bazası əsasında müəllif tərəfindən hesablanmış və tərtib olunmuşdur.

Bu diaqramda postsovet məkanına daxil olan bəzi ölkələr (statistik məlumatların əlçatan olduğu) üzrə ISO standartlarının milli standartlara nisbətinin faiz göstəricisi əks olunmuşdur. Göstəricilər milli standartların beynəlxalq standartlarla harmonizasiya səviyyəsini xarakterizə edir və ölkələrin beynəlxalq standartlaşdırma sistemlərinə inteqrasiya dərəcəsini müqayisəli şəkildə qiymətləndirməyə imkan verir. Diaqramdan göründüyü kimi, ən yüksək harmonizasiya səviyyəsi Rusiya (4,31%) və Qazaxıstanda (3,54%) müşahidə olunur. Bu, həmin ölkələrin standartlaşdırma sistemində ISO standartlarının tətbiqinə və uyğunlaşdırılmasına daha geniş yer verildiyini göstərir. Nisbətən yüksək göstərici, həm də onların beynəlxalq ticarət, texniki tənzimləmə və sənaye istehsalında qlobal standartlara uyğunlaşmaq səylərini əks etdirir. Ukrayna (1,77%) orta səviyyədə nəticə göstərərək müəyyən dərəcədə harmonizasiya istiqamətində irəliləyişə nail olmuşdur. Digər tərəfdən, Azərbaycan (0,44%), Belarus (0,42%), Estoniya (0,42%) və Ermənistan (0,12%) kimi ölkələrdə harmonizasiya səviyyəsi kifayət qədər aşağıdır. Bu, milli standartlaşdırma sistemlərində ISO standartlarının tətbiqinin məhdud olduğunu, eyni zamanda beynəlxalq normalara inteqrasiyanın zəif getdiyini göstərir. Daha da aşağı göstəricilər isə Gürcüstan (0,04%), Latviya (0,15%), Litva (0,09%) və xüsusilə Moldova (0,01%) üzrə qeydə alınmışdır. Bu nəticələr həmin ölkələrdə milli standartlaşdırma sistemlərinin əsasən daxili normativlərə əsaslandığını və beynəlxalq uyğunlaşmanın zəif olduğunu göstərir.

Ümumilikdə, diaqram göstərir ki, postsovet ölkələri arasında standartların harmonizasiya səviyyəsində ciddi fərqlər mövcuddur. Nəticə olaraq belə demək olar ki, standartların harmonizasiya səviyyəsi bir ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının mühüm göstəricilərindən biridir və bu göstəricinin yüksək olması beynəlxalq bazarlara çıxış imkanlarını, məhsul və xidmətlərin rəqabət qabiliyyətini artırır. Əldə olunan nəticələr göstərir ki, harmonizasiya səviyyəsi yalnız texniki tənzimləmə deyil, həm də iqtisadi siyasət alətidir. Beynəlxalq standartların tətbiqi ixracatçı firmaların

sertifikatlaşdırma xərclərini azaldır. Harmonizasiya ticarət tərəfdaşlarının etimadını gücləndirir, xüsusən də Avropa İttifaqı ilə əməkdaşlıq edən ölkələrdə. Aşağı harmonizasiya isə milli məhsulların beynəlxalq bazarda qəbul edilməsini çətinləşdirir.

**Azərbaycanın standartlaşdırma sistemində islahatlar**

Azərbaycanın milli standartlaşdırma sistemində aparıcı qurum Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) hesab olunur. AZSTAND dövlət qurumu olaraq fəaliyyət göstərir və ölkədə standartlaşdırmanın inkişafında mərkəzi rol oynayır. Onun əsas vəzifələri arasında milli standartların hazırlanması və tətbiqi, beynəlxalq standartlara uyğunluğun təmin edilməsi, məhsul və xidmətlərin sertifikatlaşdırılması, eləcə də uyğunluğun qiymətləndirilməsi və nəzarət mexanizmlərinin həyata keçirilməsi yer alır. AZSTAND həmçinin beynəlxalq əməkdaşlıqda aktiv rol oynayır və ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı), IEC (Beynəlxalq Elektroteknik Komissiyası) və CEN/CENELEC (Avropa Standartlaşdırma Komitələri) kimi nüfuzlu beynəlxalq standartlaşdırma təşkilatlarının üzvüdür. Bu üzvlük institutun standartların beynəlxalq səviyyədə uyğunlaşdırılmasına və Azərbaycan məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına imkan verir.

Respublikada dövlət standartlaşdırma sisteminin təkmilləşdirilməsi, milli standartların harmonizasiyası və ticarətdə texniki maneələrin aradan qaldırılması istiqamətində ciddi addımlar atılmışdır. Belə ki, Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli "Standartlaşdırma haqqında" Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 12 iyul 2019-cu il tarixli 780 nömrəli Fərmanı ilə ölkədə standartlaşdırma sisteminin liberallaşdırılması istiqamətində aşağıdakı addımlar atılmışdır:

- standartların könüllü olması prinsipi;
- beynəlxalq və regional standartlarla uyğunluq və adaptasiya;
- ticarətdə texniki maneələrin azaldılması;
- normativ sənədlərin hazırlanmasında maraqlı tərəflərin iştirakının təmin edilməsi;
- şəffaflıq və istehlakçılar/bazar tələblərinin nəzərə alınması;
- normativ sənədlərə çıxışın yaxşılaşdırılması və çeşidinin sadələşdirilməsi.

Bu tədbirlər milli standartlaşdırma sisteminin çevikliyini artırmaqla yanaşı, Azərbaycanın qlobal ticarət sisteminə inteqrasiyasını gücləndirmək üçün də vacibdir. Bununla belə, liberallaşdırmanın tam iqtisadi və institusional səmərəsini təmin etmək üçün bir sıra əlavə tədbirlər zəruridir. Əvvəla, standartlaşdırma prosesində şəffaflığın daha da artırılması, maraqlı tərəflərin – xüsusilə özəl sektorun, elmi institutların və istehlakçı təşkilatlarının – daha fəal iştirakının təmin edilməsi mühüm məsələdir. Eyni zamanda, beynəlxalq təcrübələr göstərir ki, texniki yardımın və ixtisasartırma təlimlərinin genişləndirilməsi, həmçinin normativ infrastrukturun (sınaq laboratoriyaları, sertifikatlaşdırma orqanları və akkreditasiya sistemləri) institusional baxımdan möhkəmləndirilməsi liberallaşmanın davamlı nəticələrinə nail olmağa şərait yaradır. Bu baxımdan, Azərbaycanın qarşısında duran əsas vəzifə yalnız qanunvericilik səviyyəsində deyil, həm də icraedici və institusional müstəvidə effektiv standartlaşdırma idarəçiliyi modelinin formalaşdırılmasıdır. Bu model şəffaf, bazar yönümlü və innovasiyaya açıq standartlaşdırma mühitinin inkişafını təmin etməklə, həm milli istehsalçıların rəqabət qabiliyyətini artıracaq, həm də ölkənin beynəlxalq ticarət sisteminə daha dərin inteqrasiyasını sürətləndirəcəkdir.

## NƏTİCƏ

Harmonizasiya səviyyəsinin yüksək və ya aşağı olması hər hansı bir ölkənin standartlaşdırma sisteminin "yaxşı" və ya "pis" olması kimi qiymətləndirilə bilməz. Bu göstərici daha çox ölkənin iqtisadi prioritetləri və bazar strategiyası ilə bağlıdır. Harmonizasiya səviyyəsi aşağı olan ölkələr adətən daxili bazarlarını qorumağa, milli istehsalçıların maraqlarını müdafiə etməyə və yerli standartlara üstünlük verməyə meyilli olurlar. Belə yanaşma, xüsusən də kiçik və orta sahibkarlıq subyektləri üçün daxili rəqabət mühitində mövqelərini gücləndirməyə imkan yaradır. Digər tərəfdən, harmonizasiya səviyyəsi yüksək olan ölkələr beynəlxalq ticarətə və ixrac yönümlü iqtisadi modellərə daha açıqdırlar. Onlar beynəlxalq standartların qəbuluna üstünlük verərək məhsul və xidmətlərinin xarici bazarlarda tanınmasını, texniki maneələrin azalmasını və ixrac imkanlarının genişlənməsini təmin edirlər. Beləliklə, həm aşağı, həm də yüksək harmonizasiya səviyyəsinin sahibkarlar üçün özünəməxsus üstünlükləri mövcuddur: birincisi yerli bazarda rəqabət gücünü artırır, ikincisi isə beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirir.

Postsovet məkanında ümumilikdə dirijist yanaşmanın dominant olması müşahidə olunur. Bunun səbəbi sovet irsindən miras qalan mərkəzləşdirilmiş idarəetmə modelidir. Postsovet ölkələrinin standartlaşdırma sistemləri müxtəlif transformasiya mərhələsindədir. Rusiya və Belarus kimi ölkələrdə dövlət nəzarəti həlledici olaraq qalır. Lakin iqtisadi liberallaşma siyasəti aparan ölkələrdə bazar yönümlü mexanizmlər güclənməkdədir. Azərbaycanın mövqeyi isə hibrid model kimi xarakterizə olunur. Bu təhlil göstərir ki, postsovet məkanında balanslı, həm dövlət nəzarətini, həm də özəl sektorun fəallığını nəzərə alan qarışıq model uzunmüddətli inkişaf üçün ən optimal yanaşma ola bilər.

### İstifadə olunan mənbələr


i. Blind, K. (2004). The Economics of Standards: Theory, Evidence, Policy. Cheltenham: Edward Elgar Publishing

ii. Blind, K. (2013). *The influence of regulation on innovation: A quantitative assessment for OECD countries*. Research Policy, 41(2), 391–400.

iii. Blind, K. (2016). The impact of standards and regulation on innovation. In Handbook of Innovation Policy Impact (pp. 423–449). Edward Elgar Publishing.

iv. Blind, K., Mangelsdorf, A., & Pohlisch, J. (2018). The use of harmonized standards in international trade. Journal of World Trade, 52(2), 249–280.

v. Maskus, K. E., & Wilson, J. S. (2001). Standards and technical regulations in international trade. World Bank Policy Research Working Paper, (2688).

vi. OECD. (2017). International regulatory co-operation and trade. OECD Publishing.

vii. Swann, G. M. P. (2010). *The economics of standardization: An update*. Report for the UK Department of Business, Innovation and Skills.


**Daxil olub: 28.05.2025**
**Çapa qəbul olunub: 18.06.2025**